# Xankəndidə xanım sahibkarların iştirakı ilə sərgi-tədbir keçirilib

**Xankəndi şəhərində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ölkənin 20-yə yaxın müxtəlif regionundan olan xanım sahibkarların iştirakı ilə "Qarabağda regional xanımların gücü" adlı sərgi-tədbir keçirilib.**

Qarabağ Təlim Mərkəzi ("Karabakh Training Center") tərəfindən təşkil olunan sərginin əsas məqsədi regionlarda fəaliyyət göstərən xanım sahibkarlara dəstək olmaq, onların biznesini Qarabağda tanıtmaq və azad edilmiş ərazilərdə yeni biznes imkanlarını stimullaşdırmaqdır.

Sərgidə Xankəndi, Şuşa, Xocalı, Ağdam, Naxçıvan, Gəncə, Lənkəran, Tovuz, Quba, Mingəçevir, Masallı, Qəbələ, Qax, Bərdə, Şəki və Ağsu regionlarından olan xanım sahibkarlar iştirak ediblər. AZƏRTAC xəbər verir ki, iştirakçılar öz regionlarının milli mətbəxini, tarixi atributlarını nümayiş etdirməklə yanaşı, öz biznes məhsullarının satış və təqdimat sərgisini həyata keçiriblər.

Tədbirin rəsmi açılış hissəsində Qarabağ Ərazi Vergi İdarəsi, KOBİA və Dövlət Məşğulluq Agentliyinin nümayəndələri iştirak edərək, xanım sahibkarlarla birbaşa dialoq qurublar. Sahibkarlara işğaldan azad olunmuş torpaqlarda tətbiq edilən dövlət güzəştləri, vergi azad olunmaları və digər dəstək mexanizmləri barədə ətraflı məlumat verilib. Eyni zamanda Xankəndi Ticarət Mərkəzinin rəhbərliyi tədbirdə iştirak edən bütün xanım sahibkarlara mərkəzdə obyekt icarəyə götürmək üçün xüsusi güzəştlərin tətbiq ediləcəyi barədə müjdə verərək, onlara Qarabağda öz bizneslərini qurmaq üçün real imkanlar təklif edib.

Qarabağ Təlim Mərkəzinin təsisçisi və direktoru Aytən Məmmədova tədbirdə çıxış edərək deyib: "Qarabağ Təlim Mərkəzinin əsas hədəfi işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişinə və bu regionda dayanıqlı inkişafa töhfə verməkdir. Biz bu məqsədlə gənclər və tələbələr üçün "Startup school Karabakh" və "Gələcəyə körpü Qarabağ" kimi bir sıra mühüm layihələr həyata keçirirk. Bugünkü sərgi isə xanım sahibkarlarımızın potensialını Qarabağa köçürmək, onların regionlararası işgüzar əlaqələrini gücləndirmək üçün mühüm platformadır".

Tədbirin tərəfdaşlarından olan "Carlsberg Azerbaijan" şirkətinin Korporariv Ünsiyyətlər Departamentinin direktoru Lalə Əfəndi isə qadın sahibkarlar üçün Qarabağda yaradılan imkandan məmnunluğunu bildirib: "Sevindirici haldır ki, Qarabağın dirçəlməsində və dayanıqlı inkişafında qadın sahibkarların da payı olacaq. Burada yaradılan şərait və güzəşt imkanları da bu işə dəstəyi artırır. Azərbaycan qadınının zərif toxunuşu ilə bölgənin çiçəklənməsinin sürətlənəcəyinə əminəm. "Carlsberg Azerbaijan" olaraq bu layihəyə dəstək olmaqdan qürur duyuruq".

Tədbirin tərəfdaşları qismində "Carlsberg Azerbaijan" və "Karabakh Eco Tour", sponsorları qismində isə "Qranit" şirkəti, "Kübar" restoranı və "CAHAN Hotel" çıxış edirlər.

Qeyd edək ki, Qarabağ Təlim Mərkəzi regionun intellektual potensialının artırılması və peşəkar kadr hazırlığı məqsədilə 2025-ci ildən etibarən fəaliyyət göstərir. Mərkəzin əsas fəaliyyət istiqaməti müasir əmək bazarının tələblərinə uyğun olaraq, müxtəlif sahələr üzrə ixtisasartırma kurslarının, şəxsi inkişaf proqramlarının və korporativ təlimlərin təşkilidir. Yüksəkixtisaslı mütəxəssisləri və innovativ tədris metodikalarını bir araya gətirən mərkəz həm fərdi şəxslərin, həm də qurumların rəqabətədavamlılığının təmin edilməsinə xidmət edir.




Azərbaycan.-2026.- 11 mart (№45).- S.10.